# İlmələrin sehrində keçən ömür

**Azərbaycanda elə bir ev yoxdur ki, orada xalq sənəti nümunələri olmasın. Hər kəs gözünü açandan evdəki xalça, kilim və tikmələrə baxa-baxa özü də bilmədən bədii zövqünü inkişaf etdirir, incəsənəti az-çox anlayır.**

Xalçaçı rəssam, Əməkdar mədəniyyət işçisi Fazil Abasquluzadə də ilk sənət dərslərini öz evlərindəki xalq sənəti saxlanclarından alıb. Əriş-arğac möcüzələrindən heyrətə gəlib, rənglərdən gözləri işıqlanıb. Bir də görüb ki, çəkdiyi rəsmlər arasında xalça naxışları, ilmə-ilmə əmələ gələn süjetlər daha çoxdur. Dünyaya gəldiyi Qubadlı rayonunda nənələrin, qız-gəlinlərin toxuduğu al-əlvan xalçalara ömürlük könül verib.



O zamanlar Teymur Müskanlı kəndində xalçaçılıqla daha çox məşğul olurdular. Balaca oğlan fürsət tapdıqca hanalarda xalçaların toxunma prosesini saatlarla seyr edər və bundan zövq alardı. Orta məktəbi bitirdikdən sonra Fazil Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Bədii Qrafika" fakültəsinə daxil olur. Əsərlərində milli dəyərlərimizi, tarixi yaddaşımızı bənzərsiz təbiət mənzərələri ilə vəhdətdə əks etdirməyə meyilli olur. Tanınmış müəllimlərdən dərs alaraq bu sənətin bütün sirlərinə yiyələnir. Dekorativ-tətbiqi sənəti bacardığı qədər mənimsəyir. Diplom işi üçün seçdiyi mövzu mozaikalar olur. Xarici Dillər Universitetinin yaxınlığında bir binanın divarında böyük mozaik panno yaradır.

Universiteti bitirən gənc Fazil təyinatla İsmayıllı rayonuna göndərilib. Bir müddət müəllim işləyib, hərbi xidmətə yollanaraq Vətən borcunu yerinə yetirdikdən sonra, yenidən oraya qayıdıb və Qoşakənddə yeni tikilmiş məktəbdə pedaqoji fəaliyyətini davam etdirib. Məktəbin bütün tərtibat işlərini görüb, rəsm dərnəyi yaradıb. Lahıc xalçaçılıq məktəbinin sirlərini dərindən öyrənib və bununla da biryolluq xalça sənətinə bağlanıb. Rayon təhsil şöbəsinin metodisti vəzifəsinə irəli çəkilib, sonralar Sumqayıta köçüb. Çalışdığı hər yerdə dekorativ tətbiqi və xalq sənəti sahələrini gənclərə həvəslə öyrədib. İsmayıllıdan gələn xalçaçı xanımlar onun eskizlərini ev hanasında toxuyublar. Xalçalar əsasən süjetli olub. Əl işləri dünyanın 25-dən artıq muzeyində saxlanılır.

Fazil Abasquluzadənin qənaətinə görə, kağız və ya kətan üzərindəki əsərlər bir müddət sonra xarab olsa da, xalçalar daha uzunömürlü olur və gələcək nəsillərə çatır. İlk peşəkar xalçaçılıq əsərini Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasına həsr edib. Yeri gəlmişkən, Fazil Abasquluzadə "Şəhidlər" mövzusunda xalça üzərində əsər yaratmış ilk rəssamdır. Həmin əsər Bəxtiyar Vahabzadənin öz iştirakı ilə Şəki Tarix-Diyarşünaslıq Muzeyinə verilib. Rəssam I Qarabağ müharibəsi şəhidlərinin portretlərini də ustalıqla yaradıb. Sonra Məhəmmədhüseyn Şəhriyarın "Heydər babaya salam" poemasına həsr etdiyi "Şəhriyar" adlı beş fərqli əsər ortaya qoyub.

**Onun dedikləri:**

-"Heydərbabaya salam" əsərim İsmayıllının Təzəkənd kəndində toxunub, respublika müsabiqəsində 76 rəssamın əsəri içərisində 1-ci yeri tutub. Nizami Gəncəviyə həsr etdiyim əsər isə ABŞ-da, Karolina Universitetinin muzeyindədir. Bundan başqa, Zəlimxan Yaqubun, Paşa Qəlbinurun, Nüsrət Kəsəmənlinin portret-xalçalarını da yaratmışam. Nə qədər ki, xalqımız var, xalça sənəti də var olacaq. Xalçaçılıqda hər çeşninin, hər ilmənin öz bədii mənası, elmi, fəlsəfi izahı var. Diqqətlə baxan insan xalçanı oxuya bilməli, özü üçün oradan mənalar üzə çıxarmağı bacarmalıdır.

Sumqayıt şəhərinin 6-cı mikrorayonunda qızılgül və meyvə ağacları ilə əhatə olunmuş bir məkan var. Çoxları xalçaçı rəssam Fazil Abasquluzadənin burada yaşayıb-yaratdığını bilir. Bu məkan zövqlə haşiyələnmiş bir tabloya bənzəyir. Fazil müəllimin qapısı sənətə dəyər verən hər kəsin üzünə açıqdır.

Fazil Abasquluzadə həm də məşhur rəssamların əsərlərinin xalça versiyalarını hazırlayıb. Bu baxımdan yaradıcılığına ən çox müraciət etdiyi rəssam Tahir Salahovdur. O, Tahir Salahovun 50 əsərinin xalça versiyasını yaradıb. Bu xalçalar dünyanın səkkiz ölkəsində nümayiş olunub, müxtəlif muzeylərdə sərgilənib və böyük maraqla qarşılanıb.

Böyük Zəfərlə başa çatmış Vətən müharibəsindən sonra Fazil Abasquluzadə doğma Qubadlıya gedib. Rayonun işğaldan azad olunmasının 1-ci ildönümündə orada müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə görüşdə iştirak edib. Özünün gələcək planları ilə bağlı məlumatı təqdirlə qarşılanıb. Hazırda o, qələbə ruhlu yeni əsərlərinin eskizlərini hazırlayır. İnanırıq ki, istedadlı xalçaçı rəssamın yeni əsərləri də muzeyləri, sərgi salonlarını bəzəyəcək.

**Əli NƏCƏFXANLI, "Xalq qəzeti",**
**Ziyarət CABBAROVA,**
**Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi**

Xalq qəzeti .- 2023.- 8 yanvar.- S.10.